# “Mən gəncliyə güvənirəm”



**Prezident İlham Əliyev 2019-cu ildə Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında gəncliyinə inandığını və güvəndiyini bir daha bəyan edərkən gənc nəsil üzərinə düşən böyük məsuliyyəti daha aydın dərk etdi. Bu, güclü Azərbaycanı yeni zirvələrə aparan dahi liderin ölkə gənclərinə daha bir çağırışı idi.**

Növbəti – 2020-ci ildə isə uzaqgörən, müdrik siyasi liderin ətrafında sıx birləşərək möhtəşəm qələbə qazanan qalib ölkənin qalib gəncliyi bitməz-tükənməz qəhrəmanlıq dastanı ilə dünyanı heyran edəcəkdi.

O zaman artıq ölkəmizin artan gücünü, qüdrətini, Azərbaycan gəncliyinin isə öz dövləti, liderinin ətrafında necə sıx birləşməyə hazır olmasını göstərən şanlı Aprel müharibəsinin gözəl nümunəsi var idi. Möhtəşəm tarixi qələbəmiz olan Aprel döyüşlərində iştirak edənlərin mütləq əksəriyyətinin gənclər olması isə ölkəmizin taleyüklü məsələlərin həllində onların avanqard rol oynamasının bariz nümunəsi idi. Bu qədər güclü vətənpərvərlik ruhu, belə sarsılmaz iradəsi olan Vətən oğulları 30 ildən artıq erməni tapdağında olan doğma yurdun ağrı-acısına daha dözə bilməzdilər.

Məhz dövlətimizin gənclər siyasətində dövlətçilik və milli maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Tarixin yaddaşına böyük Zəfər kimi daxil olmuş müqəddəs savaş gənclərimizin yüksək milli ruha, sarsılmaz əqidəyə sahib olduğunu bütün möhtəşəmliyi ilə nümayiş etdirdi. Müharibədə əsas missiyanı isə müzəffər Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər.

Dövlətimizin başçısı Vətən müharibəsində Qələbənin səbəblərindən bəhs edərkən vətənpərvərlik amilini xüsusi vurğulayır.

Bu gün qürurla xatırlayırıq ki, hər günü böyük tarixə bərabər olan 44 günün sayılı dəqiqələrində gənclərimiz məhz Müzəffər Ali Baş Komandanın sarsılmaz iradəsi ilə mümkün olmayanı reallığa çevirməyi düşündülər və bunu bacardılar.

Onu da fəxrlə xatırlayırıq ki, həmin dövrlər Vətənimizin hüdudlarından çox-çox uzaqda yaşayan, sayı yüzminlərlə olan azərbaycanlı gənclərin də ürəyi məhz doğma Vətənlə döyünürdü.

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov hər məqamı böyük dastan olan Vətən müharibəsində gənclərimizin ön cəbhədə olduğu kimi, sosial şəbəkələrdə də fədakarlıq göstərdiklərini bildirir: “Gənclərimizin informasiya müharibəsində böyük güc nümayiş etdirərək bu sahədə də düşməni üstələməyimiz üçün həlledici rol oynadılar. Onların yüksək intellekti, savadı, dünyagörüşü də böyük Qələbədə müstəsna əhəmiyyət daşıyır. Azərbaycanın gənclər siyasəti dünya dövlətləri üçün bir nümunə modelidir. Bütün sahələrdə yetərincə kadr potensialının aparıcı qüvvəsi olan gəncliyimiz Vətənə, bayrağa sədaqəti ilə fərqlənirlər. Onların bu gün bütün sahələrdə uğurla təmsil olunmaları, ölkə hüdudlarından kənarda öz ixtiraları, elmi potensialları ilə fərqlənmələri faktdır. Azərbaycanda gənclərin könüllülük hərəkatı, bu hərəkatın gənclərin təşkilatlanmasına, onların bir amal uğrunda birləşməsinə, cəmiyyətin saflaşmasına və kadr potensialının hazırlanmasına verdiyi töhfələr də diqqəti cəlb edir. Dördüncü Sənaye İnqilabı, onun mərkəzinin Azərbaycanda yaradılması, həm də gənclərimizə geniş informasiya məkanına çıxış əldə etmək üçün böyük imkanlar yaradır.

2 Fevral – Azərbaycan Gəncləri Gününün ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan gəncliyinə ən böyük ərməğan olduğunu deyən R.Abbasov qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2023-cü il “Heydər Əliyev İli” elan edilib. Görkəmli siyasi və dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. O, bununla əlaqədar paytaxtda beynəlxalq simpoziumun, eləcə də fləşmobların, müxtəlif təşkilat və müəssisələrdə, təhsil ocaqlarında ulu öndərin xatirəsinə həsr olunacaq idman yarışlarının, dəyirmi masaların, konfransların təşkilinin nəzərdə tutulduğunu bildirib. Eyni zamanda, Heydər Əliyevin adını daşıyan mədəniyyət ocaqlarına, mərkəzlərə, ümummilli liderin dövründə tikilib istifadəyə verilmiş idman komplekslərinə, şahmat məktəblərinə turların, ekskursiyaların keçirilməsi, həmçinin Heydər Əliyev zirvəsinə yürüşün planlaşdırıldığını vurğulayıb.

“Bu gün Azərbaycan gəncləri həm də dünyanın güclü idmançıları sayılırlar. Vətən uğrunda müqəddəs savaşda əsgərlərimizin möhtəşəm fiziki gücü onları, həm də mənəvi cəhətdən sarsılmaz etmişdi. Şuşa uğrunda döyüşlərdə igidlərimizin göstərdiyi qeyri-adi qəhrəmanlıqlar fədakarlıq idi”, - deyən idarə rəisinin sözlərinə əlavə etmək istəyirik ki, gənclərimiz bu gün də bu gücü nümayiş etdirirlər.

Bu yaxınlarda xalqımızı, dünyanın sülhsevər qüvvələrini sarsıdan daha bir hadisə Vətən oğullarının necə ilahi bir gücə sahib olduqlarını gündəmə gətirdi. Azərbaycanın İrandakı səfirliyinə terror hücumu zamanı Azərbaycan səfirliyinin əməkdaşı hətta əliyalın təhlükəli terrorçunun üzərinə cəsarətlə gedərək onu tərksilah etməklə faciənin miqyasının genişlənməsinin qarşısını alıb.

Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan torpaqlarında faydalı qazıntı yataqlarının qanunsuz istismarına etiraz edən azərbaycanlı ekofəalların Şuşa ərazisindən keçən Laçın–Xankəndi yolunda 50 gündən artıq davam edən aksiyasında gənclərimizin nümayiş etdirdiyi iradə xüsusilə təqdirəlayiqdir. Eyni zamanda, Azərbaycan gəncinin kənar təsirlərə qarşı mübarizədə xüsusi iradə nümayiş etdirməsi qürurverici faktdır.

İlham Əliyevin “Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram”, - sözləri Azərbaycan dövlətinin gənclərə yüksək etimadının, gənclərin isə Prezidentə böyük dəstəyinin bariz ifadəsi olduğunu hər addımda təsdiq edir. Biz isə fəxarətlə deyirik ki, belə gəncləri olan dövləti, xalqı heç zaman məğlub etmək olmaz. Onlar Vətən qeyrətinin, təəssübkeşinin, ləyaqətinin qorunması üçün canlarından belə keçməyə hazır və qadirdirlər.

***Leyla QURBANOVA***